# BƏDİİ ƏDƏBİYYATIN TƏBLİĞİ VƏZİYYƏTİ

II məqalə

**PROBLEM**

*Knyaz ASLAN*

Son illər Azərbaycanda bir neçə özəl televiziya kanalının açılması, onların milli mentalitetimizə yabançı verilişləri və kinofilmləri müntəzəm olaraq efirə verməsi, özəl radio dalğalarında Azərbaycan dilinin qol-qabırğasının sındırılması, qarmaqarışıq səs-küy yığınının səhərdən axşamadək "dünya musiqisi" adı ilə dinləyicilərə sırınması, üzdəniraq qəzet və jurnalların sayının çoxalması və öz səviyyəsiz materialları ilə gənc nəslin bədii-estetik zövqünü korlaması ciddi mənəvi təhlükədən xəbər verir. Bunların qarşısını almaq üçün cəmiyyətdə sosial institut kimi qəbul edilmiş kitabxanalar xüsusi tədbirlər planı işləyib hazırlamalı, yüksək əxlaqi dəyərlərə malik olan bədii ədəbiyyat nümunələrini geniş oxucu kütləsi arasında məqsədyönlü şəkildə təbliğ etmək üçün konkret tədbirlər həyata keçirməlidir.

Son zamanlar şair və yazıçıların yeni nəşr olunmuş ***kitablarının təqdimat mərasimlərinin (prezentasiyalarının) keçirilməsi*** kitabxanaların daha çox müraciət etdiyi kütləvi üsullardan biridir. Bu cür təqdimat mərasiminin üstün cəhətləri budur ki, burada kütləvi işin həm əyani, həm də şifahi formaları bir-birini tamamlayır, müəllifin və kitab haqqında mülahizələrini söyləyən tanınmış mütəxəssislərin tədbirdə iştirakı təmin edilir, oxucular həmin əsərin məzmunu ilə daha dolğun şəkildə tanışlıq imkanı qazanırlar. Təqdimatın keçirilməsində adətən kitabın müəllifi və kitabı çapdan buraxmış nəşriyyat maraqlı tərəf kimi iştirak edirlər. Ona görə də onlar çox vaxt təşəbbüsçü rolunda olurlar. Kitabxanaçı çalışmalıdır ki, tədbirdə daha elmli oxucular, ədəbiyyat və incəsənət sahəsində tanınmış mütəxəssislər, müzakirə olunacaq kitab haqqında inandırıcı fikirlər söyləyə biləcək şəxslər iştirak etsinlər.

Təqdimat mərasimində bir qayda olaraq satış sərgisinin təşkili də yenilik kimi qiymətləndirilməlidir.

Müşahidələrimiz göstərir ki, bir çox hallarda bu cür təqdimetmə mərasimləri orta və ya ali məktəblərdə, idarə və səfirliklərdə təşkil edilir. Kitabın təbliği baxımından bu nə qədər cəlbedici olsa da, bəzən kitabxanaların həmin tədbirlərdə təmsil edilməməsi təəssüf doğurur. Əlbəttə, bazar iqtisadiyyatı şəraitində öz kitabını hər hansı bir nəşriyyatda çap etdirmək üçün sponsor axtaran müəllif əsəri nəşr olunandan sonra onun prezentasiyasını məhz xeyriyyəçilik missiyasını həyata keçirmiş müəssisədə təşkil etmək istəyir. Burada qeyri-adi heç nə yoxdur. Lakin kitabxanaçılar bu tədbirin keçirilməsinin onlara həvalə olunmasının daha məqsədəuyğunluğunu müəllifə başa sala bilsələr, şübhəsiz ki, kitabxananın nüfuzu ictimaiyyət arasında bir az da artar.

Bundan başqa, oxuculara fərdi, qrup və kütləvi xidmət göstərərkən kitabxanaçı bədii əsərlərin və incəsənət ədəbiyyatının daha səmərəli təbliği üçün bir sıra tələblərə əməl etməlidir.

Oxuculara bədii ədəbiyyatla fərdi xidmətin vəzifələrini belə qruplaşdırmaq mümkündür:

***a) Oxucuların hər hansı bir bədii əsərə marağının və tələbatının daha dolğun ödənilməsi.*** Görkəmli Amerika kitabxanaşünası C. X.Şiranın sözləri ilə desək, "kitabxanaçılara əmək haqqını ona görə vermirlər ki, oxucuları rədd cavabı ilə yola salsınlar". Kitabxanaçı özünü oxucunun yerində təsəvvür etməyi və onun tələbatını başa düşməyi bacarmalıdır.

***b) Oxucuların müəyyən bir bədii kitabı sərbəst seçməyinə kömək göstərilməsi.*** Bu zaman kitabxanaçı oxuculara kataloqdan düzgün istifadə üçün tövsiyələr verməli, açıq rəf üsulundan bəhrələnməyin səmərəsini başa salmalı, yeri gəldikcə hər hansı bədii kitabın qısa məzmununu açmağı bacarmalıdır.

***c) Şəxsiyyətin inkişafına və özünütəsdiqinə bədii ədəbiyyat vasitəsi ilə təsir göstərilməsi, oxucuların mədəniyyət sərvətlərindən istifadə hüquqlarının həyata keçirilməsi.***

Kitabxanalarda bədii ədəbiyyatın təbliği zamanı ən çox istifadə edilən fərdi iş forması söhbətdir. Kitabxanaçının oxucu ilə söhbətinin məzmunu müxtəlif ola bilər: tövsiyə edilən bədii kitab haqqında, oxunmuş kitab haqqında, yeni daxil olmuş kitab haqqında, müzakirə edilmiş əsər haqqında və s.

Elmi xarakterli kitablar haqqında söhbətdən fərqli olaraq, kitabxanaçı oxucu ilə bədii əsər haqqında söhbət edərkən təkcə kitabın məzmununa deyil, həm də xüsusiyyətlərinə diqqət yetirməlidir. Bu zaman o, əsərin məzmununu danışmamalı, süjetini açmamalıdır, əks halda oxucuda belə təsəvvür yarana bilər ki, o, artıq kitabdakılar haqqında hər şeyi bilir və daha onu oxumağa ehtiyac yoxdur.

Uşaqlar arasında bədii əsərləri təbliğ edən zaman isə kitabxanaçı

başqa cür yanaşma tərzi seçməli, maraq doğurmaq üçün əvvəlcədən seçdiyi kiçik parçaları oxumalı və ya kitabın məzmunu haqqında tamamlanmamış məlumat verməlidir. Təcrübə göstərir ki, kitabdan götürülmüş maraqlı bir əhvalatı danışmağa başlayıb yarıda kəsdikdə məktəbyaşlı oxucular dərhal əsəri oxumaq fikrinə düşürlər. Kitabxanaçı müəyyən bir kitab haqqında danışarkən onu oxuculara göstərməli, kitabı onlarla birgə vərəqləməli, sərlövhələri ucadan oxumalı, şəkillərin və illüstrasiyaların məzmununu izah etməyə çalışmalıdır.

Müxtəlif kitabxanalarda apardığımız müşahidələr və kitabxanaçılarla söhbətlər belə deməyə əsas verir ki, tövsiyə xarakterli söhbətlərdən fərqli olaraq oxunmuş kitablar haqqında söhbətlərə ya ümumiyyətlə yer verilmir, ya da yalnız uşaq kitabxanalarında ona müraciət edilir. Doğrudur, kitabxanaçılar oxunmuş kitablar haqqında söhbətin əhəmiyyətini inkar etmirlər, lakin bu fikirdədirlər ki, belə söhbətlərin aparılması o qədər də vacib deyil və bu həmişə mümkün olmur. Bununla belə, oxunmuş kitab haqqında söhbət aydınlaşdırmağa imkan yaradır ki, oxucu həmin bədii kitabı oxuyub, ya oxumayıb? Kitabxanaçının tövsiyə etdiyi və ya oxucunun sərbəst seçdiyi bədii kitab nə dərəcədə anlaşıqlıdır? Oxucu bu əsəri həvəslə mütaliə edib, yoxsa sadəcə olaraq vaxt keçirmək xatirinə vərəqləyib? Kitabxanadan alınmış bədii kitab oxucunun mənəvi aləminə müsbət, yoxsa mənfi təsir göstərib?

Daha bir aktual məsələ haqqında. Məlumdur ki, XXI əsr informasiyalaşdırılmış cəmiyyət əsridir və artıq bir sıra böyük kitbaxanalar öz fondlarına daxil olmuş yeni nəşrlər və materiallar haqqında oxuculara fərdi informasiya verirlər. Hələlik inkişaf etmiş ölkələrdə yayılmış bu xidmət üsulu pulludur və onun yaxın zamanlarda Azərbaycan kitabxanalarında da tətbiq ediləcəyi şübhə doğurmur. İşin mahiyyəti bundan ibarətdir ki, kitabxana öz fonduna daxil olmuş yeni ədəbiyyat haqqında və ya müəyyən mövzu üzrə nəşr edilmiş kitablar barədə ayrı-ayrı oxuculara müntəzəm məlumat vermək məsuliyyətini üzərinə götürür. Bu, informasiyanın seçilmiş yayılması elementlərindən istifadə etməklə həyata keçirilir. Nəticədə, tutaq ki, Azərbaycan, rus, ingilis və başqa dillərdə çapdan çıxmış klassik və müasir ədəbiyyat nümunələri, yaxud XX əsrin poetik inciləri və ya macəra janrında yazılmış əsərlər haqqında oxucu operativ və dəqiq informasiya ala bilir.

Azərbaycan kitabxanalarının yaxın gələcəkdə kompüterləşdirilməsi həyata keçirilərsə, bu, digər elm sahələrinə dair ədəbiyyatla yanaşı, bədii əsərlərin də təbliğinin səmərəsini artırar. Kompüterlərin köməyi ilə yaradılan elektron kataloqlar həm kitabxanaçıları gərgin işdən xilas edər, həm də oxucuların istədiyi bədii kitabı seçməsinə əlverişli şərait yaradar.

Bundan başqa, kitabxanalarda bədii ədəbiyyatın təbliği zamanı rəngarəng forma, metod və üsullarından istifadə edilir ki, müasir dövrdə onların daha da təkmilləşdirilməsinə ehtiyac vardır.

Kitabxanaların iş təcrübəsi göstərir ki, kitab sərgilərinin müxtəlif növləri olsa da əsasən "Yeni kitablar" sərgisi daha çox tətbiq olunur. Bu, təqdirəlayiq olsa da, fikrimizcə, hazırkı dövrün xüsusiyyətlərini nəzərə alaraq mövzu sərgilərinin sayını artırmaq lazımdır. Belə ki, ***birincisi,*** Azərbaycan Respublikası on ildən artıqdır ki, müstəqil inkişaf yoluna qədəm qoymuşdur və artıq müstəqil dövlətin müstəqil ədəbiyyatı və incəsənəti yaranır; ***ikincisi,*** vətənpərvərlik, vətənə və xalqa məhəbbət ideyalarını əks etdirən əsərlərin məqsədyönlü təbliği bu gün daha çox aktuallıq kəsb edir; ***üçüncüsü,*** Azərbaycan torpaqlarının bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından gənc nəsil hərbi-vətənpərvərlik duyğuları aşılayan bədii əsərlərlə müntəzəm tanış edilməlidir; ***dördüncüsü,*** dövlət başçısının fərmanları ilə yubileyləri keçirilən şair və yazıçıların zəngin yaradıcılıqlarının ayrı-ayrı mövzular üzrə açıqlanması daha böyük səmərə verə bilər; ***beşincisi,*** uşaq və yeniyetmələr arasında klassik və müasir dünya ədəbiyyatının ən yaxşı örnəklərini təbliğ etmək məqsədi ilə maraqlı mövzular seçilməlidir və s.

Digər tərəfdən, bədii ədəbiyyatın növləri və janrları üzrə mövzu sərgilərinin hazırlanması oxucuların diqqətini daha çox cəob edə bilər. Məsələn, "Tarixi romanlarımız", "Macəra ustaları", "Komediyalar aləmində", "Poeziyalar dünyası", "Satira güzgüsündə" və s.

Başqa ölkələrin kitabxanalarında uğurla tətbiq edilən "Bir kitabın sərgisi" də Azərbaycan kitabxanaçılarının diqqətini cəlb etməlidir. Bu sərgiyə baxmaqla oxucular konkret bir kitabın, məsələn, Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinin yazılma tarixi, bədii məziyyətləri, qısa məzmunu, Azərbaycan dilinə təcrübəsi, müxtəlif dillərdə nəşri, haqqında yazılmış elmi-tədqiqat əsərləri, dövri mətbuat məqalələri, müxtəlif rəssamların illüstrasiyaları və s. ilə tanış olmaq imkanı qazanarlar. Eyni zamanda sərgidə kitabın məzmununun açılmasına yardım göstərən, oxucuların əsərə marağını fəallaşdıran cəlbedici suallar yazıla bilər.

Azərbaycan kitabxanalarında iş təcrübəsində az-az rast gəlinən kitabxana plakatlarının hazırlanmasına da ciddi diqqət yetirilməlidir. Təəssüf ki, bədii ədəbiyyatın təbliği ilə bağlı müxtəlif kitabxanalarda, xüsusilə uşaq kitabxanalarında tərtib edilmiş plakatlar bəsit, solğun və bir-birinə oxşar olur. Halbuki plakat yeknəsəklikdən, şablonçuluqdan uzaq olmalı, ifadəli, aydın, gözəl təsir bağışlamalıdır.

Ümumiyyətlə, müşahidələr göstərir ki, şifahi və əyani üsullar birgə həyata keçirilərkən daha təsirli olur. Ona görə kitab müzakirələri, təqdimat mərasimləri, oxucu konfransları, disputlar, mütaliə gecələri, biblioqrafik icmallar, ədəbi-bədii gecələr və s. keçirərkən bu cəhət yaddan çıxarmamalıdırlar.